AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**SEVİNC ƏMİRƏHMƏD qızı HÜSEYNOVA**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN QƏRB BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATINDA KÖÇKÜNLƏRİN İŞTİRAKI TARİXİNDƏN
**(Gəncəbasar, Gədəbəy, Allahverdi və Şəmkir materialları üzrə)**

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

Bakı – 2016

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
AMEA-nın müxbir üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı Laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, prof. **C.M.Mustafayev**
tarix üzrə fəlsəfə doktoru **T.R.Axundova**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «___»________2016-cı il tarixli iclasında, saat___$^{00}$-da keçiriləcəkdir

**Ünvan:** Az1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

**Avtoreferat** "___"__________2016-cı il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın şimal torpaqlarının Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra bu diyarda çarizmin yeritdiyi müstəmləkəçi hərbi-siyasi və sosial-iqtisadi siyasət, habelə köçürmələr, həmçinin köçürülən əhalinin məşğuliyyəti, sosial-mədəni həyatda iştirakı və bununla bağlı digər məsələlər Azərbaycanda istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dönəmində müəyyən qədər araşdırılsa da, göstərilən mövzu, bütövlükdə, XIX-XX əsrin əvvəlləri kimi böyük xronoloji dövrün kompleks halında öyrənilməsi baxımından hələ də xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Şimali Azərbaycanda Rusiya imperiyasının qeyd edilən sahələrdə yeritdiyi siyasət hələ bu imperiyanın mövcudluğu dövründə öyrənilməyə başlamış, sovet işğalı dövründə isə nisbətən daha geniş araşdırılmışdır. Lakin istər Rusiya imperiyası, istərsə də sovetlər dönəmində ərsəyə gəlmiş tədqiqat əsərlərində bu mövzu üçün obyekt kimi seçilmiş problemlər, rus çarizminin yürütdüyü siyasət mövcud ideologiyaların təsiri nəticəsində bir çox hallarda düzgün qiymətləndirilməmiş, tarixi faktlar saxtalaşdırılmalara məruz qalmışdır. Doğrudur, sovet hakimiyyəti illərində bu problemlə bağlı yazılan elmi əsərlərdə, müxtəlif monoqrafiyalarda çarizminin müstəmləkəçi siyasətinin bu və ya digər aspektlərinə toxunulsa da, tədqiqatçılar xüsusilə ictimai elmlər üzərində hakim olan kommunist ideologiyasının təsirindən kənara çıxa bilməmişlər. Rusiya işğalının "könüllü birləşdirilmə" kimi qələmə verilməsi, bu əsərlərdə "böyük qardaş" tendensiyası özünü hər cəhətdən büruzə verir: rusların, rus mədəniyyətinin Azərbaycana xoşbəxtlik gətirməsi, xalqımızın sosial-iqtisadi, mədəni inkişafına təkan verməsinin son dərəcə qabardılması, dolayı yolla Rusiya işğalına bəraət qazandırılması, köçürmə siyasətinə düzgün qiymət verilməməsi, antimüsəlman və antitürk baxışlarına üstünlük verilməsi və s. yuxarıda göstərilənlərə əyani sübutdur.

Azərbaycan XX əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra meydana gələn tədqiqat əsərlərində Rusiya imperiyasının Şimali Azərbaycanda yürütdüyü müstəmləkəçi milli-irqi, sosial-iqtisadi və mədəni siyasətin obyektiv araşdırılmasına başlanılmış, baş verən bir sıra hadisə və proseslər öz düzgün elmi həllini tapmışdır. Lakin yuxarıda qeyd etdiyimiz kimi, bəhs edilən mövzu xronoloji dövr baxımından, eyni zamanda kompleks halında hələlik ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Çarizmin köçürmə siyasəti, almanları, rusların, ermənilərin və digər xalqların Azərbaycanın şimal torpaqlarında yerləşdirilməsi, bu xalqların ayrı-ayrılıqda bölgənin etnosiyasi, sosial-iqtisadi və mədəni həyatında rolu bu

və ya digər şəkildə araşdırılsa da, köçkünlərin çağdaş Azərbaycan dövləti üçün böyük siyasi önəm daşıyan qərb regionlarımızda yerləşdirilməsi, köçürülmələrin bugünkü siyasi proseslərə də təsiri baxımından öz aktuallığını qoruyub saxlamaqdadır.

Azərbaycan XX əsrin 90-cı illərində müstəqillik qazandıqdan sonra Rusiya, İran, Türkiyə, Gürcüstan kimi qonşu dövlətlərlə, həmçinin onun müstəqilliyini tanımış dünya dövlətləri ilə qarşılıqlı faydaya əsaslanan ikitərəfli və çoxşaxəli münasibətlər qurmağa başladı. Köçürmələr nəticəsində Şimali Azərbaycan ərazisində yerləşdirilmiş və hazırda da burada yaşayan xalqların etnik proseslərdə, ölkəmizin mədəni-siyasi-iqtisadi həyatında iştirakı məsələlərinin araşdırılması dövlətlər və xalqlararası əlaqələrin genişləndirilməsinə də, sözsüz ki, öz töhfəsini verməkdədir. Xüsusilə, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycan Respublikası insan hüquqları və azadlıqları ilə bağlı çoxsaylı beynəlxalq konvensiyalara qoşuldu. Məhz o dövrdən başlayaraq Azərbaycanda tarixən mövcud olmuş tolerantlıq mühitinin daha da dərinləşdirilməsi dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Hazırda da bu siyasət uğurla aparılır, ölkə prezidenti cənab İlham Əliyevin birbaşa diqqəti nəticəsində Azərbaycan tolerantlığın və multikulturalizmin inkişaf etdiyi ölkə kimi tanınmaqdadır. Vaxtilə xalqımızın iradəsi olmadan tarixi və siyasi proseslərin nəticəsi kimi Şimali Azərbaycanda məskunlaşdırılmış xalqların buradakı tarixinin öyrənilməsi, onların yerli sosial-iqtisadi və mədəni proseslərdə iştirakının geniş şəkildə və kompleks araşdırılması müxtəlif dinə, dilə, irqə məxsus xalqların birgə yaşayışının təbliği cəhətdən də öz aktuallığını qoruyub saxlayır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya tədqiqatı Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından çarizmin süqutuna qədərki dövrü əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Ötən əsrin sonlarında Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ictimai həyatın bütün sahələrində olduğu kimi elmdə də, o cümlədən tarixşünaslıqda da yeni baxışlar və yeni tədqiqat əsərləri meydana gəlməyə başladı. Xüsusən sovet dövründə qadağan olunmuş, üstündən keçilmiş və ya sovet prinsiplərinə, rus tarixşünaslığının mənafelərinə uyğun araşdırılmış bir çox sahələr yenidən, yeni baxış və metodologiya ilə tədqiq edilməyə başladı. Tədqiqat mövzumuza yaxın olan bir sıra problemlərin də tarixi məhz milli dövlətçilik nöqteyi-nəzərindən araşdırılmışdır. Bu məqsədlə dissertasiya işində də müxtəlif dövrlərdə nəşr olunmuş tarixşünaslıq materiallarından bir sıra sosial-siyasi proseslərin, mədəniyyət hadisələrinin şərhi, izahı, yanaşmaların öyrənilməsi üçün istifadə edilmişdir.

Şimali Azərbaycan ərazisinə köçürmələrin həyata keçirilməsi, köçkünlərin buradakı ictimai-siyasi, təsərrüfat həyatı və məişətinin qurulması, köçkünlərin ictimai-siyasi təşkilatlarının yaranması və fəaliyyəti ilə bağlı problemlər hələ XIX əsrdən xüsusi diqqət mərkəzində olmuşdur. Qeyd etmək lazımdır ki, XIX-XX əsrin əvvəllərində meydana gələn əsərlər problemin öyrənilməsində xeyli əhəmiyyətə malikdir. Bu əsərlər bəzən birbaşa bu proseslərin iştirakçısı və şahidi olmuş şəxslər, çox hallarda rus məmurları tərəfindən yazıldığından həm də mənbə xarakteri daşıyır. Rus çarizminin rəsmi dövlət siyasətini təmsil edən, bəzən isə bu siyasəti müəyyənləşdirən və reallaşdıran şəxslər tərəfindən qələmə alınmış əsərlərdən dissertasiya işində Rusiyanın imperiya maraqlarını, müstəmləkəçi siyasətin mahiyyətini açıqlamaq baxımından istifadə edilmişdir.

Qeyd etdiyimiz kimi, dissertasiyada tədqiq olunan problemin bu və ya digər cəhətləri bir sıra tarixçilərin də tədqiqat obyekti olmuşdur. Nəşr olunma dövrünə və coğrafiyasına görə mövzu ilə bağlı olan tarixi ədəbiyyatı aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Çar Rusiyası dövründə nəşr edilmiş əsərlər;
2. Sovet dövrü tarixçilərinin əsərləri;
3. Azərbaycanın müstəqilliyi dövründə (1991-ci ildən etibarən) yazılmış əsərlər;
4. Xarici ölkə alimlərinin tədqiqatları.

Qeyd etmək lazımdır ki, sovetlər dönəmində dissertasiya işimizdə bəhs olunan problemin bu və ya digər sahələri ayrı-ayrı elmi əsərlərin tədqiqat obyekti olmuş, lakin mövcud siyasi sistem və ideologiyadan irəli gələn səbəblərdən xüsusilə də işğal və köçürmə proseslərinə bəzən obyektiv qiymət verilməmişdir. Bununla belə həm Rusiyada, həm də sovet Azərbaycanında XIX və XX əsrin əvvəlləri ilə bağlı çoxsaylı əsərlər yazılmışdır ki, bu zaman da tədqiq etdiyimiz dövrün bəzi məqamlarına müəyyən diqqət ayrılmışdır. Belə araşdırmalara misal olaraq K.N.Paffenqolsun[1] əsərini göstərmək olar. Əsərdə əsasən XIX əsrin birinci yarısındakı Gədəbəy və Daşkəsən dağ-mədən sənayesi barəsində məlumatlar verilir.

Mövzunu öyrənmək baxımından qonşu dövlət olan Gürcüstanda aparılmış tədqiqatlarda maraqlı məlumatlara rast gəlinir. E.B.Xoştariyanın əsərlərindən biri məhz bu qəbildən olan araşdırmalardandır.

XIX əsrin əvvəllərində aparılmış Rusiya-Qacar müharibələri nəticəsində Qacarlar səltənətindən Azərbaycana köçürülmüş kürdlər haqqında

---

[1] Паффенгольц К.Н. Кедабек, геологический очерк района Кедабекского месторождения Азербайджанской ССР. Москва-Ленинград, 1932.

məlumatları dəyərləndirmək baxımından T.F.Aristovanın[1] araşdırmaları müəyyən əhəmiyyətə malikdir.

Dissertasiya işində qarşıya qoyulmuş problemin araşdırılmasında Azərbaycan sovet tarixçilərinin əsərləri aparıcı rola malikdir. Təbii ki, sovet dövrü tarixçilərinin əsərləri içərisində dövrü öyrənmək baxımından tanınmış Azərbaycan tarixçilərinin tədqiqatları ön sırada durur. Belə tədqiqatçılardan akademik Ə.S.Sumbatzadənin[2] adını xüsusilə qeyd etmək lazımdır. Müəllif əsərlərində Şimali Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri haqqında geniş araşdırmalar aparmış və qiymətli məlumatlar vermişdir. Bu görkəmli tədqiqatçının əsərlərindən biri bütün bir əsr –XIX əsr ərzində Şimali Azərbaycanda sənayenin inkişafın dinamikasını izləməyə imkan verir. Dissertasiya işində onun bu və digər çoxsaylı tədqiqatlarından Azərbaycanın həm də qərb bölgəsinin iqtisadi inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək üçün geniş şəkildə istifadə olunmuşdur.

XX əsrin tanınmış Azərbaycan alimlərindən olan AMEA-nın müxbir üzvü professor M.Ə.İsmayılovun çoxsaylı araşdırmalarından da dövrün aqrar proseslərini aydınlaşdırmaq baxımından istifadə olunmuşdur. Onun "XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı" əsərində o dövrkü Şimali Azərbaycanın kənd təsərrüfatının vəziyyəti, köçkün rus kəndlilərinin kənd təsərrüfatına verdikləri töhfələr və s. bu kimi digər məsələləri öyrənmək baxımından böyük əhəmiyyət daşıyır. Bununla belə bu əsər bütövlükdə Şimali Azərbaycanın kənd təsərrüfatına həsr olunduğundan çox zaman Qərbi Azərbaycan diqqətdən kənarda qalmışdır.[3] XIX əsrin 80-ci illərində Cənubi Qafqazda Tiflis-Bakı dəmir yolu xəttinin çəkilişindən sonra xüsusilə mis istehsalı sahəsində nəzərə çarpacaq dərəcədə uğurların əldə edilməsi, bundan sonra mis sənayesinə kapital qoyuluşunun xeyli artması və mis məhsullarının Rusiyanın daxili quberniyalarına aparılması üçün şəraitin yaranması, dağ-mədən sənayesində müasir texnikanın tətbiqi kimi məsələləri işıqlandırmaq baxımında adı çəkilən müəllifin digər bir əsəri[4] xüsusi əhəmiyyət kəsb edir.

---

[1] Аристова Т.Ф. Из истории возникновения современных курдских селений в Закавказье // Материалы и исследования по этнографии и антропологии СССР. Москва: 1962, №2

[2] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: 1964

[3] İsmayılov M.Ə. XX əsrin əvvəllərində kənd təsərrüfatı. Bakı: 1960.

[4] Исмаилов М.А. Горная промышленность и механическое производство Азербайджана в период капитализма // Материалы по экономической истории Азербайджана. К V Международному Конгрессу Экономической Истории. Баку: 1970.

XIX əsrdə Azərbaycan sənayesinin inkişafını izləmək baxımından digər önəmli əsər T.T.Vəliyevin çox sanballı monoqrafiyasıdır.[1] Bu əsərdə bütün Şimali Azərbaycanda sənayenin müxtəlif sahələrinin inkişafı və fəhlə sinfinin təşəkkülünün spesifikası kimi məsələlərə geniş yer verilmiş, Gədəbəy mis, Daşkəsən kobalt zavodlarına kapital qoyuluşuna və eləcə də tədqiq etdiyimiz bölgənin bəzi digər fabrik və zavodlarına da böyük diqqət ayrılmışdır. Görkəmli alimin apardığı tədqiqatlardan dissertasiya işində geniş şəkildə istifadə edilmişdir.

XIX əsrin əvvəllərində Şimali Azərbaycanı işğal etmiş Rusiya imperiyasının Gədəbəy və Daşkəsən mədənləri ilə maraqlanması və bu mədənlərin sonrakı inkişafı kimi məsələlərlə bağlı məlumatlara A.Abbasovun[2] əsərində müəyyən yer ayrılmışdır. Mərhum professor D.İ.İsmayılzadə[3] öz tədqiqatlarında çarizmin köçürmə siyasətini işıqlandırmış, almanların, əsasən isə rusların Cənubi Qafqaza köçürülməsi məsələlərinə diqqət ayırmış və bu köçürmə prosesini üç əsas mərhələyə bölmüşdür. Onun əsərlərindən birində təqribən yüz ili əhatə bir dövrdə rusların indiki Azərbaycana köçürülüb yerləşdirilməsindən və onların buradakı məşğuliyyətindən söhbət açılır. Təbii ki, bu zaman da müəllif Azərbaycanın qərb bölgələrində salınmış rus kəndlərinə də ötəri toxunmuşdur.

“Şimali Azərbaycanın şəhərləri XIX əsrin ikinci yarısında” monoqrafiyasının müəllifi E.B.Muradəliyeva[4] tədqiqatlarında əsasən Azərbaycan şəhərlərinin əhalisi, etnik və sosial tərkibinə, həmçinin sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə diqqət ayırmışdır. E.B.Muradəliyevanın bu monoqrafiyasında tədqiqat mövzumuzla bağlı olan Gədəbəy, Tovuz, Şəmkir, Daşkəsən haqqında bəzi maraqlı məlumatlara rast gəlinir.

Ümumilikdə sovet dövrü tarixçilərinin əsərlərinə nəzər salanda aydın olur ki, bu əsərlərdə sovet ideologiyasına xidmət edilmiş, bəzən həqiqətlər təhrif olunmuş və ya həqiqi olan faktlara toxunulmayaraq onların üstündən sükutla keçilmiş, obyektiv səbəblərdən çar imperiyasının imperiya, müstəmləkə siyasətinin tərkib hissəsi olan köçürmə siyasətinin Azərbaycana və Azərbaycan xalqı üçün törətdiyi mənfi fəsadlara biganə yanaşılmış və bunu

---

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: 1987.

[2] Аббасов А.А. Современный быт и культура горнопромышленных рабочих Азербайджана. Баку: 1980.

[3] Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье. 30-ые годы XIX – начало XX в. Москва: 1982.

[4] Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку: 1996.

qiymətləndirməyə səy göstərilməmişdir.

Azərbaycanın indiki müstəqilliyi dövründə yazılmış əsərlərə gəlincə biz burada tam fərqli mənzərənin şahidi oluruq. Azərbaycan imperiya əsarətindən qurtulduqdan sonra sovetlər dövründə diqqətdən kənarda qalmış bir çox hadisələrə xüsusi diqqət ayrılmış və ya hadisələrə yeni prizmadan yanaşılmanın vacibliyi ortaya çıxmışdır. Bu da öz növbəsində yeni-yeni tədqiqat əsərlərinin meydana çıxmasına şərait yaratmışdır.

Rusiya imperiyasının XIX əsr və XX əsrin əvvəllərində Şimali Azərbaycanda həyata keçirdiyi köçürmə siyasətindən bəhs edən H.Y.Verdiyevanın əsəri belə tədqiqatlardan biridir. H.Y.Verdiyevanın araşdırmalarında çarizmin köçürmə siyasəti, bu siyasətin məqsədləri, köçürülmələrin ardıcıllığı, Şimali Azərbaycana, o cümlədən qərb bölgələrimizə köçürülmələrə geniş yer ayrılmışdır[1]. Ümumilikdə monoqrafiyada bizim tədqiqatımızla bağlı bir sıra önəmli məlumatlara rast gəlinsə də, bununla belə Zəngəzur və Borçalı bölgələri nisbətən diqqətdən kənarda qalmışdır. Adını çəkdiyimiz bu müəllifin digər bir əsərində almanların Şimali Azərbaycana köçürülməsi, köçkünlərin buradakı fəaliyyətindən bəhs edilir.

Çar Rusiyasının köçürmə siyasətindən bəhs edən digər bir əsər isə, F.E.Bağırovun monoqrafiyasıdır.[2] Əsərdə əsasən arxiv məlumatlarına əsaslanılaraq köçürmə prosesi nəticəsində rus kəndlilərinin sayının durmadan artırılması, bunun Azərbaycan kəndlilərinə mənfi təsiri, köçürülən rus kəndlilərinə ehtiyat torpaq sahələri kimi torpaqların verilməsi kimi bir sıra önəmli məlumatlar verilmiş, eləcə də bir çox statistik məlumatlar elmi dövriyyəyə gətirilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə yaşayan bir çox etnik azlıqların tarixinin öyrənilməsinə də maraq xeyli artmışdır[3]. Belə etnik azlıqlardan biri də vaxtı ilə çar Rusiyası tərəfindən Azərbaycana köçürülmüş almanlardır. Şimali Azərbaycanda yaradılmış alman koloniyası olan Yelenendorfda şərabçılığın yaradılması və inkişaf etdirilməsi kimi məsələlərə N.A.İbrahimovun məqaləsində işıq salınmışdır. İlk alman dəstələrinin Azərbaycana köçürülməsi və onların burada məskunlaşdırılması, alman köçkünlərin Azərbaycan xalqı ilə qarşılıqlı əlaqələrindən bəhsə edən tədqi-

---

[1] Вердиева Х.Ю. Немцы в Северном Азербайджане. Баку: 2009.

[2] Багиров Ф.Е. Переселенческая политика царизма в Азербайджане. 1830-1914 гг. Москва: 2009.

[3] Ибрагимов Н.А. Возникновение и развитие немецких колоний в Азербайджане // Материалы I Международной научной конференции «Кавказские немцы – немцы на Кавказе до I-ой Мировой войны. Баку: 2001.

qatlardan biri M.Ş.Cəfərlinin əsəridir[1].

Dövrü öyrənmək baxımında maraqlı tədqiqatlardan biri də S.M.Zeynalovanın məqaləsidir[2]. Bu tədqiqatın köməyi ilə vaxtilə Şimali Azərbaycanda salınmış alman koloniyalarının böyük bir dövr ərzində inkişafını, oradakı əhalinin məşğuliyyəti, siyasi fəaliyyəti, mədəniyyəti ilə bağlı mühüm məsələləri izləmək mümkündür. Bununla belə bu əsərdə də Zəngəzur, Borçalı, Göyçə bölgəsi diqqətdən kənarda qalmışdır.

Adı çəkilən müəllif bu sahədə öz tədqiqatlarını davam etdirmiş və 2010-cu ildə növbəti monoqrafiyasını[3] nəşr etdirmişdir. Düzdür, bu və yuxarıda adını çəkdiyimiz əsərdə verilən bir sıra faktlar üst-üstə düşsə də, sonuncu monoqrafiyada bəzi maraqlı və təkzibedilməz dəlillər də vardır ki, bu da özlüyündə bu əsərin qiymətini artırmış olur. Müəllif uzaq Almaniyadan onlar üçün tamamilə yad olan Qafqaz diyarına köçürülmüş almanların yerli mühitə və əhaliyə uyğunlaşmalı olduqları mərhələni eksperimental mərhələ adlandırır. S.M.Zeynalovanın yazdığına görə, məhz bu dövrdə koloniyaçılar təsərrüfatın müxtəlif sahələrini eksperiment edirdilər, çox vaxt məhsuldar nəticələr əldə edə bilmirdilər.

Alman köçkünlərindən bəhs edən digər bir əsər isə, T.Axundovanın. monoqrafiyasıdır[4].

Əsərində alman kolonistlərindən bəhs edən Qəmərşah Cavadov Şəmkirçayın sağ sahilində Seyfəli Hacı bəyə məxsus Hacıarx sahəsinin də Yelenendorf kolonistlərinin ixtiyarına verilməsi[5], Azərbaycan sənayesinin bir sahəsini təşkil edən Naftalan neftinin çıxarılmasında da almanların xüsusi xidmətlərinin olması, milliyyətcə alman olan E.İ.Yeger[6] tərəfindən 1892-ci ildə Naftalan ərazisində ilk dəfə olaraq Naftalan mazı hazırlamaq üçün kiçik bir zavod tikilməsi kimi bir çox maraqlı məsələlər barəsində məlumatlar vermişdir.

Bəhs olunan dövrdə köçkünlərin həyat tərzinin, yaşayış və adət-ənənələrinin öyrənilməsi baxımından müəllifin digər tədqiqat əsəri də xüsusi maraq doğurur. Bir etnoqraf olaraq Q.Cavadov əsərlərində vaxtı ilə Azər-

1 Джафарли М.Ш. Политический террор и судьба азербайджанских немцев Баку: Шарг-Дизайн. 1998.

2 Зейналова С. Немцы на Азербайджане: ретроспективный анализ // Центральная Азия и Кавказ. Швеция. №6 (42), 2005.

3 Зейналова С. Формирование европейских этнических общин на Кавказе (XIX – первая половина XX вв.). Баку: 2010.

4 Ахундова Т. Немцы-колонисты Азербайджана XIX – нач. XX в. Баку: 1999.

5 Cavadov Q.C. Yazdım ki, izim qalsın. Bakı: 2005.

6 Yenə onun. Xalq təbabəti məişətimizdə. Bakı: 1995.

baycana köçürülmüş duxoborların, molokanların, kürdlərin, aysorların, yunanların, ermənilərin, almanların və digər millətlərin nümayəndələri haqqında ətraflı da olmasa, bir sıra ümumi səpkili məlumatlar vermişdir. Mövcud dissertasiyada bu tanınmış etnoqrafın tədqiqatlarındakı maraqlı faktlara da istinad edilmişdir[1].

T.Ə.Əzizovun müəllifi olduğu "Azərbaycan XX əsrin əvvəllərində"[2] əsərində Daşkəsəndə Simenslərə məxsus kobalt mədənlərində, Gədəbəydə və indiki Azərbaycanın digər qərb regionlarında 1902-1916-cı illər arasında sənayenin inkişafı ilə bağlı tədqiqatımızın mövzusuna aid maraqlı məlumatlar verilmişdir.

Qafqazda, o cümlədən Şimali Azərbaycanda almanların məskunlaşdırılması, ictimai iqtisadi fəaliyyətləri haqqında digər bir maraqlı tədqiqat əsəri isə İkram Ağasıyevə məxsusdur[3].

M.Abdullayev "Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti" adlı məqaləsində çar Rusiyasının Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin təzahürlərini qabarıq şəkildə verməyə çalışmışdır.[4]

Problemin ətraflı araşdırılması üçün bir sıra Avropa müəlliflərinin də əsərlərinə istinad edilmiş, onların bəziləri ilk dəfə elmi dövriyyəmizə gətirilmişdir. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, onların məkrli fəaliyyəti, çarizmin yürütdüyü siyasət bu əsərlərdə də öz əksini tapmışdır. Bu baxımdan Səmuel A.Uimz, T.Svyataxovski, E.Fogerin əsərlərini vurğulamaq olar.

**Tədqiqatın mənbə bazası.** Tədqiqatın mənbəşünaslıq bazasını ilk növbədə Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), Gürcüstan Respublikası Dövlət Tarix Arxivi (GRDTA) və Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Rusiya Federasiyası Dövlət Tarix Arxivindən (RFDTA) aşkara çıxarılmış və bir hissəsi elmi dövriyyəyə ilk dəfə daxil edilən qiymətli sənədlər və materiallar təşkil edir. Bu materiallar bütövlükdə Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda çarizmin köçürmə siyasəti və onun nəticələrini müəyyənləşdirməyə imkan verən ayrı-ayrı strukturların rəsmi yazışmalarını, statistik məlumatları və s. əhatə edir ki, bütün bunlar bu siyasətin həyata keçirilməsi zamanı çarizmin ruslaşdırma, xristianlaşdırma niyyətlərinin çılpaqlığı ilə işıqlandırılmasında bizim üçün

[1] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları (Tarix və müasirlik). Bakı: 2000.

[2] Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: 1997.

[3] Ağasıyev İ. XVIII əsrin sonu – XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. Bakı: 2009.

[4] Abdullayev M. Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti // Azərbaycan tarixinin çağdaş problemləri. Bakı: 2000.

əvəzsiz mənbə olmuşdur. Bu arxivlərin fondlarında saxlanılan materialların ən böyük üstünlüyü ondan ibarətdir ki, onların əksəriyyəti bilavasitə hadisələrin iştirakçılarının və ya şahidlərinin əlindən çıxmışdır. Eyni zamanda, həmin sənəd və materialların, demək olar ki, hamısı rus müstəmləkəçi hakim dairələri nümayəndələrinin qələminə məxsus olub onların mənafelərinə xidmət etmişdir.

Qaynaqların ikinci ən böyük qrupuna nəşr olunmuş mənbələri aid etmək olar. Bu qaynaqların içərisində görkəmli şərqşünas, çar Rusiyasının o zamankı Qafqaz idarələrində böyük nüfuza malik olmuş Adolf Berjenin redaktorluğu altında çap olunmuş "Qafqaz Arxeoqrafiya Komissiyasının Topladığı Aktlar"[1] xüsusi yer tutur. Nəfis tərtibatlı 12 cilddən ibarət olan bu "Aktlar"da orta əsrlərdən XIX yüzillik də daxil olmaqla Qafqazda, o cümlədən də Şimali Azərbaycanda baş vermiş hadisələri özündə əks etdirən on minlərlə qiymətli ilkin sənəd toplanılmışdır. Həmin sənəd və materialların siyasi məqsədli "redaktorların" qələmi ilə redaktə edilməməsi onların mötəbərliyi və etibarlılığına təminat verir.

"XIX əsrin 20-60-cı illərində rus çarizminin Azərbaycandakı müstəmləkə siyasəti" adlı, hələ XX əsrin 30-cu illərinin ortalarında işıq üzü görmüş ikicildlik sənədlər və materiallar külliyyatı[2] da nəşr olunmuş qaynaqlar içərisində mühüm yer tutur.

Dissertasiya işinin yazılması gedişində həmçinin Yelizavetpol (Gəncə) quberniyasında bir sıra müəssisələrin açılması, onların fəaliyyəti, maliyyələşdirilməsi və idarə edilməsi ilə bağlı faktlar müxtəlif illərə dair icmallara istinad edilərək əks etdirilmişdir.

Rusiya imperiyasında qəbul edilən bir sıra qanunlar, rəsmi fərmanlar və əsasnamələr Rusiya İmperiyası Qanunlarının Tam Külliyyatında da[3] öz əksini tapdığından bu mənbə dissertasiya işində dövlətin rəsmi siyasətini müəyyən etmək baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Bəhs olunan dövrə aid qiymətli mənbələrdən biri də Tiflisdə uzun illər boyunca nəşr edilmiş "Qafqaz təqvimi"dir. Bu mənbə Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda sosial-iqtisadi yenilikləri müəyyən qədər xronoloji ardıcıllıqla izləməyə imkan verir.

Ümumiyyətlə, dissertasiya işində XIX yüzilliyə aid çar məmurlarının hesabatlarından, qanunvericilik aktlarından və xeyli sayda bu tipli mənbələrdən istifadə olunmuşdur.

[1] Акты, собранные Кавказской Археографической Комиссией, т. I-XII.

[2] Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годов XIX в. Ч. 2. Москва-Ленинград: Изд-во Института Истории СССР, 1937.

[3] Полное Собрание Законов Российской Империи (müxtəlif cildləri).

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində qarşıya qoyulan əsas məqsəd XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər olan dövrdə çar Rusiyasının Şimali Azərbaycana, xüsusilə onun qərb regionlarına köçürmə siyasətinin istiqamətlərini və məqsədlərin, müstəmləkəçi cəhətlərini aydınlaşdırmaq, köçürmələrin ayrı-ayrı xalqlar üzrə müqayisəli təhlilinin aparmaq, köçkünlərin regionun sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına təsirini müəyyənləşdirməkdir.

Bu əsas məqsədə çatmaq üçün tədqiqatın aşağıda sadalanan konkret vəzifələri müəyyən edilmiş və onların həllinə cəhd göstərilmişdir:

- Şimali Azərbaycan torpaqlarında alman koloniyalarının yaradılmasının ilkin şərtlərini təhlil etmək;
- alman koloniyalarının yaradılmasını ardıcıl olaraq izləmək;
- əsrlər boyu çar Rusiyasının əlində alətə çevrilmiş ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsini, bu mürtəce aktın ağır nəticələrini təhlil etmək;
- XIX əsrin 30-cu illərində Şimali Azərbaycana rusların köçürülməsinin səbəblərini, gedişi və nəticələrini tədqiq etmək;
- XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın qərb bölgələrində əmələ gələn köçkün təsərrüfatlarının təşəkkülü prosesi, bu prosesin özəl xüsusiyyətlərini araşdırmaq;
- xristian köçkünlərin Azərbaycanın qərb regionlarının iqtisadi həyatında rolunu müəyyənləşdirib qiymətləndirmək;
- köçkünlərin yerləşdirilməsini, onların sosial-iqtisadi həyatının qurulmasında Qafqazın idarələrinin fəaliyyətini işıqlandırmaq;
- elmi qaynaqlar və materiallar əsasında köçkünlər arasında ictimai-siyasi təşkilatların təşəkkülü prosesi və bu təşkilatların işini tədqiq və təhlil etmək;
- Şimali Azərbaycanın qərb bölgələrinin mənəvi-mədəni həyatında köçkünlərin iştirakı məsələlərini ardıcıl olaraq araşdırıb qiymətləndirmək.

**Dissertasiya işinin metodoloji əsasları.** Tədqiqatın nəzəri və metodoloji əsasını arxiv, tarixi, elmi-ictimai, statistik materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil edir. Mövzu işlənərkən bu mövzunun tədqiqinə həsr olunmuş ədəbiyyatlara, dissertasiyalara, arxiv materiallarına istinad edilmişdir.

Dissertasiyada XIX-XX əsrin əvvəllərini əhatə edən bir dövrdə bu mövzuya aid tarixi hadisə və proseslər xronoloji ardıcıllıqla izlənilmiş, öyrənilmiş və araşdırılmışdır. Problem araşdırılarkən son tədqiqatlara daha çox üstünlük verilmiş, elmi hesabatlara istinad edilmiş və məsələyə müasir

tələblər baxımından yanaşılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Mövcud dissertasiya XIX-XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanda yürütmüş olduğu köçürmə siyasətini, Azərbaycanın qərb regionlarında köçkünlərin ictimai-iqtisadi, sosial-mədəni fəaliyyətini özündə kompleks şəkildə əks həsr etdirən ilk ümumiləşdirilmiş tədqiqatdır. Müəllif mövzunun vacibliyi və əhəmiyyətini, habelə onun indiyədək ayrıca, müstəqil, xüsusi dissertasiyanın tədqiqat obyekti olmadığını nəzərə alaraq, bəhs olunan mövzuda tədqiqat aparmağı lazım bilmişdir. Dissertasiya işində ilk dəfə olaraq:

- Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin sosial həyatın müxtəlif sferalarındakı fəaliyyəti geniş xronoloji çərçivədə (XIX-XX əsrin əvvəlləri) araşdırılmış, ümumiləşdirmələr edilmiş, yeni arxiv materialları və xüsusilə son illərdə nəşr edilmiş müxtəlif tarixşünaslıq materialları elmi dövriyyəyə gətirilmişdir;

-ümumilikdə bu tədqiqat işi mənbəşünaslıq və tarixşünaslıq materiallarının kompleks və müqayisəli təhlil şəklində, yeni milli elmi tələblərə uyğun olaraq işlənməsi əsasında yazılmışdır;

-dissertasiya işində ilk dəfə olaraq bəzi materiallar hərtərəfli şəkildə tədqiqata cəlb olunmuş, məhz bu tədqiqatlardan əldə edilmiş elmi-statistik materiallar dissertasiya işinin əsas material bazasını təşkil etmişdir;

-təqdim olunan bu dissertasiya işində mövzu haqqında tarixçi tədqiqatçıların söylədikləri yeni fikirlər də yekunlaşdırılaraq Azərbaycan tarixinin təxminən son 200 illik dövrü üçün nə kimi mövqe tutması yeni aşkar edilmiş tarixi və ictimai dəyərlər əsasında şərh edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində materialların hərtərəfli təhlili əsasında əldə edilmiş elmi nəticələr, irəli sürülmüş elmi müddəalar, həmçinin ümumiləşdirmələr və yekunlar Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri üzrə ümumiləşdirici əsərlərin yazılması üçün dəyərli ola bilər. Bu tədqiqat əsərinin materiallarından ali təhsil müəssisələrinin humanitar təmayüllü fakültələrində ixtisas kurslarının keçirilməsində, ali məktəblər üçün elmi-metodik vəsait, dərslik və dərs vəsaitlərinin hazırlanmasında, eləcə də etnoqraflar, tarixçilər, politoloqlar və başqa mütəxəssislərin yetişdirilməsində, bugünkü tolerantlıq və multikultiralizmin araşdırılıb təbliğ edilməsində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix institutunun "Azərbaycanın yeni tarixi" şöbəsində hazırlanmış, həmin şöbədə iki dəfə müzakirə olunaraq müdafiəyə buraxılmışdır. Dissertasiyanın başlıca məzmunu müəllifin Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda nəşr

edilmiş məqalələrində, elmi konfrans və seminarlardakı çıxışlarında geniş elmi və oxucu kütləsinə çatdırılmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş qaynaqlar və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş qaynaqlar və ədəbiyyatın siyahısından ibarətdir.

Dissertasiyanın "Giriş" hissəsində tədqiqat obyekti kimi qoyulmuş mövzunun aktuallığı əsaslandırılmış, dissertasiyanın məqsəd və vəzifələri müəyyən edilmiş, onun elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmiş, problemlə bağlı olan mənbələr səciyyələndirilmiş və problemin tarixşünaslığı təhlil edilmişdir.

Dissertasiyanın **I fəsli – "Rusiya işğalının gedişi və ondan sonra Şimali Azərbaycan ərazisinə köçürmələrin həyata keçirilməsi"** adlanır. Fəsil 4 yarımfəsildən ibarətdir.

Fəslin I yarımfəsli "**Azərbaycan torpaqlarında alman koloniyalarının yaradılması"** adlanır. Qeyd olunur ki, Cənubi Qafqazda alman məskənlərinin yaradılması XIX əsrin ilk onilliklərinə təsadüf edir. XVIII əsrin sonu – XX əsrin əvvəllərində Almaniya siyasi dağınıqlıq dövrünü keçirməklə yanaşı ağır iqtisadi böhran içərisində idi. Napoleon müharibələri də ölkədən yan keçməmişdir. Siyasi dağınıqlıq, alman dövlətləri arasında çəkişmələr, xristian dininə məxsus müxtəlif dini cərəyanların və təriqətlərin mövcudluğu Almaniyanın XIX əsrin I yarısının mənzərəsini əks etdirən əsas əlamətlərə çevrilmişdi. Hətta 1815-ci il Vyana konqresinin qərarı ilə təşkil edilən, 34 knyazlığı və bir neçə şəhəri birləşdirən Alman İttifaqı belə birliyə və ölkənin birləşdirilməsinə gətirib çıxarmadı. Məhz belə bir dövrdə Rusiya alman koloniyalarının hərbi cəhətdən fəth edilmiş Qafqaz torpaqlarında yerləşdirilməsinə ciddi diqqət ayırır.

Alman xristian təriqətçilərinin Cənubi Qafqaza köçürülməsi prosesi 1817-1818-ci illərdə başlanılır. Onların içərisində savadlı mühəndislərin, bacarıqlı sənətkarların, kəndlilərin olması da rus çarizminin Qafqazla bağlı planları ilə üst-üstə düşürdü. "Yelizavetpol dairəsində xəzinə torpaqları az deyil və orada müxtəlif məqsədlərlə köçkünləri yerləşdirmək olar" deyərək, alman kolonistlərinin Azərbaycanda yerləşdirilməsi təşəbbüsü general Yermolov tərəfindən irəli sürülmüşdür. Almanların Azərbaycan torpaqlarında yerləşdirilməsi haqqında məlumatları Verner fon Simens özünün "Qafqaz səyahətləri" əsərində də təsvir etmişdir. "Bu məskənlər yarandıqlarına görə

Şvab əyalətinin çox dindar lüteranlarına borcludur. Onlar əsrimizin (XIX əsr – S.H.) ilk onilliklərində müxtəlif dəstələr halında vətənlərini tərk edərək quru yolu ilə Avstriya və Rusiya üzərindən “vəd olunmuş torpaqlara” köç etmək istəmişlər. Çünki orada, başçılarının dediyinə görə, onları dünyəvi və səmavi xoşbəxtliklər və sevinclər gözləyirmiş. Amma rus hökuməti o vaxtlar çalışqan alman əkinçilərinin Qafqazda məskunlaşdırılmasında çox maraqlı imiş və ona görə də o, həmin dəstələri orada dayandırmış və onları rusların müşayiəti ilə həqiqətən də onlar üçün münasib torpağın olub - olmamasını yoxlamaq üçün Qüdsə bir komissiya göndərməyə vəd vermişdi. Komissiya üzün müddətdən sonra geri qayıtdıqda onlara “vəd edilmiş torpaqlara” köçü davam etdirməməyi məsləhət etmişdir”.

Bundan əlavə, 1821-ci ildə Cənubi Qafqazda “Qara dəniz və Xəzər dənizi arasında Bazel Yevangeliya cəmiyyətini” yaratmış Bazel missionerləri də peyda oldular. Onlar həmin ilin oktyabrında Rusiya hakimiyyət orqanlarından Qafqazda alman koloniyasının yaradılması barədə izn də istəmişdilər. 1822-ci ilin yanvarında Bazel missionerlərinə koloniya yaratmağa icazə verilmişdir.

Beləliklə, çar hökuməti əslində qarşıya qoyduğu məqsədə nail olur. Almanların Cənubi Qafqaza, xüsusilə də Şimali Azərbaycana köçürülməsi ilə həm burada xristian elementini müəyyən qədər gücləndirir, həm də Avropa kənd təsərrüfatı yeniliklərinin regionda yayılmasına şərait yaradırdı.

Fəslin II yarımfəsli **“Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi”** adlanır. Qeyd edildiyi kimi, Şimali Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsinə ilk cəhdlər hələ 1724-cü ildə göstərilmişdi. Lakin XVIII əsrin 30-cu illərində çar Rusiyası Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda möhkəmlənə bilmədiyindən bu proses nəticəsiz qalmışdı.

XIX əsrin I yarısında Rusiyanın Qacarlar və Osmanlı dövlətləri ilə apardığı qalibiyyətli müharibələr Şimali Azərbaycana ermənilərin köçürülməsinin genişmiqyaslı dalğasına səbəb oldu. I Pyotrun xələfləri onun zamanında əsası qoyulan siyasəti “uğurla” davam etdirərək, öz işğalçı siyasətlərində erməni amilindən məharətlə yararlana bildilər. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi prosesi hələ birinci Rusiya-Qacarlar müharibəsinin gedişində başlamışdı. Ermənilər Şimali Azərbaycanın qərb bölgələrində – Borçalı, Şəmşədil, Dilican və Göycə ətrafında da yerləşdirildilər[1].

Aydın görünür ki, Rusiya Cənubi Qafqazda işğalçılıq mənafelərinə xidmət edən, regionda çarizm üçün etnik dayaq və sosial baza rolunu oynayacaq qüvvə axtarışında ermənilərin üzərində dayanmışdı. Bu, Rusiyanın

---

[1] Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: 2007.

iqtisadi və siyasi maraqlarına tam cavab verirdi. Ermənilər üçün isə Rusiya guya “xilaskar” rolunu oynayan “müqəddəs” bir ölkə idi. Ermənilər istər 1804-1813-cü illər, istərsə də 1826-1828-ci illər Rusiya-Qacar müharibələrinin gedişində ciddi-cəhdlə Rusiyanın bölgədəki işğalçı yürüşlərində yaxından iştirak edərək həm Qacarlar səltənətinə, 1828-1829-cu illər müharibəsinin gedişində isə “sadiqi-təbəə” hesab edildikləri Osmanlı dövlətinə xəyanətdən çəkinməmişdilər.

Şimali Azərbaycanın qərb bölgələrinə ermənilərin köçürülməsinin özünəməxsus xüsusiyyətləri var. Rusiya imperiyası Şimali Azərbaycanı xristianlaşdırmaq, xüsusilə erməniləri burada yerləşdirmək üçün xüsusi siyasət yeridirdi. 1828-ci ildə çar xüsusi fərmanda heç vaxt burada dövləti, siyasi qurumu olmayan ermənilərə əzəli Azərbaycan torpaqları – İrəvan və Naxçıvan xanlıqlarının ərazisində Erməni vilayəti yaratdı. Bu, erməni, rus və bəzi xarici tarixşünaslıqda «Şərqi Ermənistanın qədim torpaqlarının ermənilərə qaytarılması kimi» qiymətləndirilirdi.

Qacarlar və Osmanlı dövlətlərindən xristianların, xüsusilə ermənilərin Cənubi Qafqaza, Şimali Azərbaycana köçürülməsi sürətləndirildi. Türkmənçay müqaviləsinin Rusiya üçün böyük siyasi əhəmiyyəti olduğunu Rusiyanın o vaxtkı xarici işlər naziri K.V.Nesselrode açıq etiraf edirdi. Bu müqavilə Cənubi Qafqaza ermənilərin köçürülmə siyasətini həyata keçirməyə əlverişli imkan yaratdı. Rusiya iqtisadiyyatının həm Cənubi Qafqazın dağıdılmış təsərrüfatını bərpa etməyə, həm də genişmiqyaslı köçürmə əməliyyatı aparmağa, Osmanlı və Qacar dövlətlərindən olan erməniləri yeni yerlərdə məskunlaşdırmağa gücü çatmırdı. Eyni zamanda Rusiya bütün erməniləri Cənuba Qafqazda, ilk növbədə Şimali Azərbaycanda yerləşdirmək istəyirdi.

İşğal etdiyi ərazilərdə müstəmləkə siyasətini həyata keçirmək üçün çarizmin istifadə etdiyi üsullardan biri də digər xalqların regiona köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi idi. Yerləşdirmədə üstünlük ermənilərə verilirdi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan itaətkar ermənilər bu iş üçün digərlərindən daha münasib idilər. Çarizmin regiona gəlməsi ilə o zamana qədər heç bir zaman olmayan «erməni məsələsi» də meydana çıxdı[1].

Ermənilərin Osmanlı və Qacar dövlətləri ərazilərindən köçürülərək Cənubi Qafqaza yerləşdirilməsi məsələləri ilə məşğul olan Xüsusi Komissiya yaradılmışdı. Köçürülmə nəticəsində Qarabağ əyalətində ermənilərin sa-

---

1 Ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi və nəticələri (1828-1920) // shusha.az./ermənilərin_Azərbaycan_torpağına_yerləşdirilməsi

yı 1828-1829-cu illərdəki 18 mindən 1843-cü ildə 34 min 606 nəfərə çatdı. Köçürülmə məsələləri ilə məşğul olan çar məmuru N.İ.Şavrov bununla bağlı olaraq yazırdı ki, 1828-1830-cu illərdə Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi erməni əhalisinin yox dərəcəsində olduğu Yelizavetpol və İrəvan quberniyalarında ən yaxşı torpaqlarda yerləşdirildilər. Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ) və Göycə gölünün sahillərində də ermənilər məskunlaşdırıldı. O, daha sonra qeyd edirdi ki, Cənubi Qafqazda yaşayan 1 milyon 300 mindən artıq ermənininin 1 milyondan çoxunun diyarın köklü sakinlərinə aidiyyəti yoxdur və bizim tərəfimizdən köçürülərək yerləşdirilmişlər.

Beləliklə, müstəmləkəçi Rusiya imperiyasının hərbi-siyasi, sosial-iqtisadi maraqlarının təmin edilməsi məqsədi ilə təbəələri olduqları Osmanlı və Qacar dövlətlərinə xəyanət etmiş ermənilərin kütləvi surətdə Quzey Azərbaycana köçürülməsi vətənimiz və xalqımızın sonrakı tarixi üçün bir çox ağrılı fəsadların bünövrəsini qoydu.

Fəslin III yarımfəsli **“Rusların Azərbaycana köçürülməsi”** adlanır. Cənubi Qafqazın, o cümlədən, Şimali Azərbaycanın işğalından sonra Çar Rusiyası regionda özünün siyasi və sosial-iqtisadi mövqelərini möhkəmləndirmək məqsədilə buraya rusların da köçürülməsinə başlamışdı. İşğal edilmiş ərazilərdə rus məskənlərinin yaradılması Rusiyanın imperiya maraqlarından irəli gəlib, çarizmin xristianlaşdırma və ruslaşdırma siyasətinin mühüm tərkib hissəsi idi.

Şimali Azərbaycanda rus məskənlərinin yaradılması istiqamətində ilk təşəbbüslər və bunun həyata keçirilməsi üçün ilk addımlar hələ XIX əsrin 20-ci illərinə təsadüf edir.

General A.P.Yermolov Cənubi Qafqazda ailəli əsgərlərdən ibarət hərbi-təsərrüfat tipli məskənlərin yaradılması planını irəli sürmüşdür. Bu, zərurətdən atılan addım idi. Çünki bəhs edilən dövrdə Qafqazda könüllü şəkildə məskunlaşmaq istəyən ruslar yox dərəcəsində idi. A.P.Yermolovun ideyasında iki əsas məqsəd güdülürdü: işğal edilmiş ərazilərdə rus elementini gücləndirmək; imperiyanın yeni sərhədlərini müdafiə etmək məqsədilə burada daimi hərbi qüvvələr saxlamaq.

XIX əsrin 30-cu illərindən etibarən Yelizavetpol ərazisində də rus kəndləri meydana çıxmağa başlayır. İlk belə rus kəndi Cəbrayıl qəzasında Qarabulaq adı ilə əmələ gəlmişdi[1]. 1842-ci ildə isə Tambov və Saratov qu-

---

[1] Сегаль И.А. Русское переселение в Елисаветпольской губернии, Елисаветполь, 1890, с.1; П.Е.Петров «Духоборы Елисаветпольского уезда», Известия Кавказского отдела императорского русского географического об-ва, т. XVII. Тифлис: 1906.

berniyalarından köçürülmüşlərdən 55 ailədən ibarət rus Borusovka kəndi yaradıldı. Həmin ildə Qazax qəzasında Qolovino kəndinin, 1844-cü ildə Novo-Dilican, Yelizavetpol qəzasında isə Slavyanka kəndlərinin bünövrəsi qoyuldu. Slavyanka kəndinin ilk sakinləri olan 108 ailə Tavrida quberniyasından köçürülən duxobor kəndlilər idi[1] .

XIX əsrin sonlarında Yelizavetpol quberniyasında mövcud olan rus kəndlərinin sayı on dördə çatmışdı. Bunlardan dördü Qazax, biri Cəbrayıl, biri Şuşa, yeddisi Yelizavetpol, biri isə Zəngəzur qəzalarında yerləşirdi.[2]

Çarizmin köçürmə siyasəti nəticəsində XIX əsrin birinci yarısı və ortalarına doğru, demək olar ki, təriqətçi və bidətçi rus kəndlilərinin xeyli hissəsi Cənubi Qafqazda yerləşdirilmişdi.

Təriqətçi və bidətçi rus kəndlilərinin Cənubi Qafqaza köçürülməsi bir tərəfdən Rusiyanın mərkəzi quberniyalarında kəndli həyəcanlarının qarşısının alınmasına xidmət edirdisə, digər tərəfdən çarizmin bəhs edilən regionda imperiya maraqları ilə də üst-üstə düşürdü. Bununla həm Cənubi Qafqazda ruslaşdırma siyasəti reallaşdırılır, digər tərəfdən bölgənin, xüsusilə də Şimali Azərbaycanın təbii ehtiyatlarını daha yaxşı mənimsəmək imkanları genişlənirdi.

Fəslin IV yarımfəsli **“**XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanın qərb regionlarına köçürmə siyasəti” adlanır. Bu yarımfəsildə mərkəzi çar hakimiyyət orqanları və yerli Qafqaz administrasiyasının Vətənimizin qərb bölgələrinə yönəli köçürmə siyasəti, bu siyasətin başlıca məğzi, xüsusiyyətləri və nəticələrindən bəhs edilir. Müxtəlif qaynaqlar və zəngin ədəbiyyat materialları əsasında Gəncəbasar, Gədəbəy, Şəmkir və digər qərb bölgələrimizdə bu siyasətin törətdiyi fəsadlar ətraflı şəkildə tədqiq olunmuş və dəyərləndirilmişdir.

Dissertasiyanın II fəsli **– “Köçkünlərin Şimali Azərbaycanın qərb regionlarında sosial-iqtisadi fəaliyyəti”** adlanır. Fəsil iki yarımfəsildən ibarətdir. Fəslin “**Şimali Azərbaycanın qərb regionlarında köçkün kəndli təsərrüfatlarının meydana gəlməsi”** adlanan **I yarımfəslində** əsasən Şimali Azərbaycanın qərb regionlarında köçkün kəndli təsərrüfatlarının meydana gəlməsindən və köçkünlərin qərb regionlarının sənayesində, ticarət müəssisələrinin inkişafında iştirakı və rolu, onların sosial-iqtisadi həyat tərzlərindən bəhs olunur.

Azərbaycan tarixşünaslığında XIX əsrdə Rusiya tərəfindən Şimali Azərbaycanın işğal edilməsinə münasibət müxtəlif olmuşdur. Sovet döv-

---

[1] Сегаль И.А. Скотоводство в Елисаветпольской губернии // Кавказского сельское хозяйства, 1887, 22 мая.

[2] Обзор Елизаветпольской губернии за 1898 г. Тифлис: 1899, с.79

ründə Rusiya işğalı «birləşdirmə» və ya «tərkibinə daxil olma» konsepsiyası kimi səciyyələndirilirdi. Yalnız müstəqillik illərində Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması konsepsiyası öz əksini tapdı, Rusiyanın ölkəmizə qarşı yürütdüyü müstəmləkəçilik siyasəti obyektiv, hərtərəfli təhlil edildi. XIX əsrin 60-70-ci illərində həyata keçirilən burjua islahatları, XX əsrin əvvəllərində baş verən coşqun inqilabi hadisələr Rusiyanın mərkəzi quberniyalarından Cənubi Qafqaza, o cümlədən Şimali Azərbaycana rusların köçürülməsinə xeyli dərəcədə təsir göstərmişdi. Nəticədə Şimali Azərbaycanda və onun qərb regionlarında yeni rus məskənləri meydana gəlmişdi. Tarixşünaslıq və mənbəşünaslıq materiallarında XX əsrin əvvəllərində Yelizavetpol quberniyası ərazisində yeni rus kəndlərinin yaranması, onların torpaqla təminatı, yaşayışları, məşğuliyyətləri haqqında məlumatlar vardır. Öz tədqiqatlarında çarizmin köçürmə siyasətini geniş şəkildə araşdıran F.E.Bağırovun əsərində 1907-ci ildə Qazax qəzasının Tovuz stansiyası yaxınlığındakı yeni rus kəndinin, həmçinin Yelizavetpol quberniyası ərazisində Lvovka, Frezevo, Daşkovo və b. yeni rus məskənlərinin adları çəkilir.[1]

Rusiyanın mərkəzi quberniyalarında yaşayan rus kəndlilərinin torpaqla təminatı problemini həll edə bilməyən çar hakimiyyət orqanları inqilabi hərəkata qoşulmuş rus kəndlilərinin problemlərini onları mərkəzi quberniyalardan uzaqlaşdırıb Cənubi Qafqazda, o cümlədən, Şimali Azərbaycan torpaqlarında yerləşdirmək və onlardan imperiya maraqları üçün istifadə etmək niyyətində idi.

Yuxarıda qeyd etdiyimiz kimi, köçürülən rus kəndlilərinin torpaqla təmin edilməsi isə yerli əhalidən alınan torpaqların hesabına həyata keçirildiyindən Azərbaycanda torpaqsız və aztorpaqlı kəndlilərin sayı getdikcə daha çox artır, yerli əhalinin güzəranı ağırlaşırdı.

Fəslin "**Köçkünlərin qərb regionlarının sənayesində, ticarət müəssisələrinin inkişafında iştirakı və rolu, onların sosial-iqtisadi həyat tərzləri**" adlanan II yarımfəslində bir sıra məsələlərə toxunulmuşdur. Şimali Azərbaycanın Rusiya tərəfindən istilası XIX əsrin əvvəllərində «sənayeləşmə öncəsi vəziyyətdə olan» iki cəmiyyətdən birinin digərini özünə tabe etməsi hadisəsi idi və yarım əsr ərzində Rusiyanın etdiyi dəyişikliklər yalnız inzibati islahatlarla məhdudlaşmışdır. Rusiya istilasının Şimali Azərbaycan iqtisadiyyatına ilkin təsiri cüzi idi: bəzi hallarda isə bu təsir hətta geriyə aparırdı.

Şimali Azərbaycanın qərb regionlarına köçürülənlər bu bölgədə sənayeni, ticarət müəssisələrini inkişaf etdirərək sosial-iqtisadi həyatı canlan-

[1] Bax: Bağırov F.E. Göstərilən əsəri.

dırdılar. Şimali Azərbaycanın qərb bölgəsində – Borçalı distansiyasında mis sənayesi ilə əsasən yunan köçkünlər məşğul olurdular. Allahverdi misəritmə zavodunda onlar xəzinəyə heç bir vergi vermir, zemski (yerli) mükəlləfiyyət daşımırdılar. Rusiya hökuməti çıxarılan misin 10 faizini əldə edir, 2 faizi isə Borçalı və Qazax distansiyalarından olan erməni kəndlərindən olan fəhlələrə vəsait kimi verilirdi. Köçkün yunanlar tərəfindən vaxtilə avarlı Ömər xan tərəfindən dağıdılmış Axtal zavodunda gümüş çıxarılırdı. Onlar da vergi ödəmir, ancaq bəzi cüzi mükəlləfiyyətlərdə iştirak edirdilər. Qori qəzasından köçürülmüş gürcülər də vergi ödəmirdilər. Rusiya ruslaşdıra bilmədiyi əraziləri erməniləşdirirdi. Rusiyanın Şimali Azərbaycanda yaratdığı qarət və soyğunçuluq sistemində xüsusi erməni ticarət ekspedisiyası fəal iştirak edirdi. Köçkün ermənilər də ticarət və sənətlə məşğul idilər».[1] XIX əsrin ikinci yarısında Rusiyada, o cümlədən Cənubi Qafqazda həyata keçirilən burjua xarakterli islahatlar nəticəsində alman koloniyaçıları da bazar iqtisadiyyatının yeni mərhələsinə qədəm qoydular. 1902-1903-cü illərdə Yelenendorf koloniyasında Forer və Hummel qardaşları firmalarının iri müəssisələrlə yanaşı, Y.Qurr, Q.Vakenqut, Q.Peytenbah və İ.Bretmayerə məxsus 10 mineral su-şərab, 2 limonad zavodu da fəaliyyət göstərirdi. Bu istehsalat – sənaye obyektlərində 2-dən 6-dək fəhlə işləyir, onların illik dövriyyəsi 1000 rubldan 7000-8000 rubla çatırdı. Bu müəssisələr mövsümi işləri görürdü[2]. Beləliklə, alman koloniyaçıları Şimali Azərbaycanın şərabla bağlı istehsalat sahələrinin – konyak, şərab-araq, pivə və s. sahələrini inkişaf etdirirdilər.

Birinci Dünya müharibəsi başlananadək alman koloniyaçılarının payına bütövlükdə Yelizavetpol şərabçılıq istehsalının 50%-dən artığı düşürdü[3] .

Qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısında alman kapitalının sürətlə Şimali Azərbaycanın qərb bölgəsinə nüfuz etməsi alman-yunan elementlərinin, habelə erməni qaçqınlarının dağ - mədən sənayesinin inkişafında rolunu daha da fəallaşdırmışdı.

Gədəbəy-Qalakənd, Daşkəsən dağ-mədən sənayesində alman koloniyaçılarının təsərrüfat ixtisaslaşmasının əsas meylləri gerçəkləşdi. Alman koloniyaçıları Şimali Azərbaycanın dağ-mədən sənayesi ilə yanaşı mexaniki istehsalında da əsaslı rol oynamışdılar. Məlum olduğu kimi, Azərbaycan

---

[1] Обозрение Российских владений за Кавказом. Санкт-Петербург: Типография Департамента Внешней Торговли, 1836, часть I, II

[2] ARDTA, f.508, siy.1, iş 43, v. 50-51; iş 53, v, 9.

[3] Bax: Ахундова Т. Немцы-колонисты Азербайджана XIX– нач. XX в. Баку: 1999.

qədim zamanlardan mis, dəmir, gümüş, kükürd, kobalt yataqları ilə zəngin olan bir ölkədir. Alman kapitalistləri tərəfindən tikdirilib istismara verilən və əsasən alman koloniyaçılarının işlədikləri Gədəbəy və Qalakənd zavodlarının məhsulları Rusiyanın daxili quberniyalarına, Cənubi Qafqazın digər yerlərinə, həmçinin xaricə - Almaniyaya da göndərilirdi. Şimali Azərbaycanın qərb bölgəsinə yerləşdirilmiş köçkünlərin sosial-iqtisadi həyatından danışarkən qeyd etmək lazımdır ki, onlar Kür çayı sahillərində və göllərdə az miqdarda balıqçılıqla məşğul olsalar da, pambıqçılıq, tütünçülük, biyan kökü, çiyid yağı ilə demək olar ki, nəzərə çarpacaq dərəcədə məşğul olmamışlar. Alman və yunan köçkünlər daha çox dağ-mədən sənayesi, üzümçülük, şərabçılıq, heyvandarlıq, kustar sənayesi, rus köçkünlər isə əkinçilik, heyvandarlıq sahələrində uğurlar qazanmışdılar. Erməni köçkünlər isə əsasən şərabçılıq, sənətkarlıq və ticarətlə məşğul idilər.

Yuxarıda gətirilən faktlardan da görünür ki, köçkünlər xüsusilə XIX əsrin ikinci yarısından etibarən Şimali Azərbaycanın qərb regionlarının sosial-iqtisadi həyatında mühüm rol oynamış, sənaye və kənd təsərrüfatının inkişafına öz töhfələrini vermişdilər.

Dissertasiya işinin III fəsli **“Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin ictimai-siyasi və mədəni həyatı”** adlanır. Fəsil 3 yarımfəsildən ibarətdir. Bu fəsildə Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin təsərrüfat həyatı və məişətinin qurulması ilə bağlı Qafqaz administrasiyasının fəaliyyətindən və köçkünlərin ictimai-siyasi təşkilatlarının yaranması və fəaliyyətindən, habelə Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin mənəvi və mədəni həyatından bəhs olunur.

**“Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin təsərrüfat həyatı və məişətinin qurulması ilə bağlı Qafqaz administrasiyasının fəaliyyəti”** adlanan I yarımfəsildə ilk Qafqaz administrasiyasının yaranmasından, habelə onun fəaliyyətindən bəhs edilir. Bəhs olunan dövrdə Qafqaz administrasiyası alman koloniyaçılarının köməyi ilə kənd təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirmək məqsədini güdür və onların məişətlərini yaxşılaşdırmaq istiqamətində fəaliyyət göstərirdi. Alman koloniyaçıları üzümçülüyü və şərabçılığı inkişaf etdirirdilər. Qafqaz administrasiyasının səyləri ilə almanlar onlar üçün yeni olan təsərrüfat sahələrini – ipəkçilik, tütünçülük, çəltikçiliyi də öyrənirdilər. Qafqaz administrasiyasının cəhdlərinə baxmayaraq, ipəkçilik, taxılçılıq sahələrində uğur qazanılmadı. Qafqaz administrasiyasının başçısı Qolitsının təşəbbüsü ilə Cənubi Qafqaz Kəndli Torpaq Bankının filialları yaradıldı. Bankın Şimali Azərbaycanın qərb bölgəsi köçkünləri üçün Yelizavetpol filialı da fəaliyyətə başladı. Bunda əsas məqsəd köçkünlər arasında rus xüsusi torpaq sahibkarlarının formalaşdırıl-

ması idi. 1905-ci ildə Qafqaz canişini təyin edilmiş qraf İ.İ.Vorontsov-Daşkov rus köçkünləri məsələsinə münasibətdə mülayim mövqe tuturdu.

XX əsrin əvvəllərində Qafqazda köçkünlərin xeyli sayı artdı. Lakin I Dünya müharibəsinin başlanması ilə Şimali Azərbaycanın qərb bölgələrindəki köçkünlərin bir qismi Rusiyaya axın etdi.

Beləliklə, XIX-XX əsrin əvvəllərində müstəmləkəçi köçürmə siyasəti yürüdən çarizm Şimali Azərbaycanın qərb bölgələrində özünə etnososial, konfessional dayaq yaratmış oldu. Bu bölgədə ən qədim dövrlərdən formalaşmış türk-islam mədəniyyətinə Avropa-xristian elementlərini gətirdi. Köçürmə siyasəti nəticəsində Qafqazda köçürmə inzibati sistemi formalaşdı ki, bunun da əsasında özünün müxtəlif orqanları ilə Qafqaz administrasiyası dururdu.

Şimali Azərbaycanın qərb bölgələrinə – əzəli, qədim torpaqlarımıza köçürülmüş köçkünlər bölgənin mədəni, ictimai-siyasi həyatında müəyyən rol oynadılar.

III fəslin II yarımfəsli "**Köçkünlərin ictimai-siyasi təşkilatlarının yaranması və fəaliyyəti**" adlanır. Məlum olduğu kimi, Şimali Azərbaycanda məskunlaşmış köçkünlər – almanlar, ermənilər, yunanlar, ruslar, ukraynalılar yalnız bölgənin iqtisadi həyatında, infrastrukturunda mühüm rol oynamır, ictimai həyata adaptasiya olunur, öz milli identiklərini qoruyub saxlamağa, ictimai fəallıqlarını gücləndirməyə, öz ictimai təşkilatlarını yaratmağa çalışırdılar. XX əsrin əvvəllərində Şimali Azərbaycanda bir neçə alman xeyriyyə cəmiyyəti yaradılmışdı. Bunlardan Qadın Yevangel-Lüteran Xeyriyyə Cəmiyyəti 1907-ci il iyulun 20-də qeydiyyatdan keçmişdi. Cəmiyyətin məqsədi Yevangel – Lüteran etiqadlı bütün insanlara yardım etmək, onları ərzaq, paltar, mütəmadi olaraq pul vəsaiti, işlə, qocalar evi ilə təmin etmək idi[1] .Xeyriyyə fondları alman koloniyaçıları arasında mədəni-xeyriyyəçilik tədbirləri və təlim-təhsil fəaliyyətini həyata keçirirdilər.

Şimali Azərbaycanın rus köçkünləri Rusiya dövlətinin və xeyriyyə fondlarının himayəsi və qayğısını işdə çarizmin xristian etnoloji sosial bazasına çevirməklə yanaşı, Dövlət Dumasına öz deputatlarını seçərək, hakim sağ partiyalara və bolşeviklərə qoşularaq müxtəlif siyasi meylləri ilə fərqlənirdilər.

III fəslin III yarımfəsli "**Şimali Azərbaycanın qərb regionlarında köçkünlərin mənəvi və mədəni həyatı**" adlanır. Şimali Azərbaycana köçmüş almanlar və ruslar mənəvi və mədəni inkişaf səviyyələrini yüksəltməklə yanaşı, azərbaycanlılarla köçkün gəlmələr arasında qarşılıqlı zənginləşmə prosesi də gedirdi. Köçkünlər arasında almanlar mədəni səviyyələrinə

---

[1] ARDA, f. 46, siy. 2, iş 76, v. 26.

görə ən çox inkişaf etmiş etnos hesab olunurdu. Köçkünlərdən ermənilər öz milli mədəniyyəti olmayan və qonşu xalqların mədəniyyətləri hesabına yaranan qarışıq mədəniyyətə malik, mənəviyyatsız, ikiüzlü, hiyləgər, yalançı bir xalq idilər. Əgər almanlar, rusların müəyyən hissəsi o zamankı Şimali Azərbaycanın ictimai-siyasi problemlərinin həllində bu və ya digər şəkildə iştirak edirdilərsə, ermənilər, bir qayda olaraq, təcavüzkar pozuculuq fəaliyyəti ilə məşğul olur, ictimai-siyasi həyatı zəhərləyirdilər.

Rus köçkünləri rus mədəniyyətinin daşıyıcısı, lakin pravoslav dinin müxtəlif təriqətlərinə xas olan qruplarda birləşmişdilər.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqat əsasında əldə olunmuş ümumiləşdirmələr və elmi nəticələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Об историографии переселений в Северный Азербайджан в XIX – начале XX вв. // Гілея. Науковий вісник. Випуск 75 (8). Киев: 2013, s. 192-194.
2. Şimali Azərbaycanda köçkünlərin ictimai-siyasi təşkilatlarının yaranması və fəaliyyəti // AMEA Tarix İnstitutu. Elmi Əsərlər. 2012, cild 41-42-43, s. 158-176.
3. Verner fon Simensin "Qafqaz səyahətləri" Azərbaycanın Gədəbəy bölgəsinin tarixini öyrənmək üçün qiymətli ilk mənbə kimi // Verner fon Simens. Qafqaz səyahətləri. Bakı: 2013, s. 6-17.
4. XIX-XX əsrin əvvəllərində Şimalı Azərbaycanın qərb bölgələrində köçkün kəndli təsərrüfatlarının meydana gəlməsinə dair // Tarix və onun problemləri. Bakı: 2016, s. 64-72.
5. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində erməni təşkilatlarının Şimali Azərbaycanda fəaliyyətlərinə dair // "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş III Beynəlxalq elmi konfransın materialları. AMEA Tarix İnstitutu. Bakı: 2016, s. 377-384.

**Sevinj Amirahmad gizi Huseynova**

# FROM THE HISTORY OF PARTICIPATION OF IMMIGRANTS IN THE SOCIO-ECONOMIC AND CULTURAL LIFE OF WESTERN REGIONS OF NORTHERN AZERBAIJAN IN THE NINETEENTH AND EARLY TWENTIETH CENTURIES
## (on the materials of Ganjabasar, Gedabey, Allahverdi and Shamkir)

## SUMMARY

In the dissertation based on various sources – archive materials, statistical collections, media and other sources, as well as on the basis of the existing literature is investigated the participation of immigrants in the socio-economic and cultural life of western regions of Northern Azerbaijan in the nineteenth and early twentieth century. The author for the first time in Azerbaijan historiography through drawing into research work materials of Azerbaijani lands, especially of Allahverdi region, that have not been studied so far, investigates in details various features and aspects of the Germans, Russians, Armenians and other settlers' lives.

It is in particular emphasized in the work that despite the claims of the Soviet historiography there was taking place a process of mutual enrichment between the settlers and the local population. Though these people brought some economic novelties to Azerbaijan, established the developed economies due to the extremely favorable conditions created for them by government, they benefitted from the economic experience of the local population as well. However, the positive role of the German and Russian immigrants in some areas of the Azerbaijani economy, especially in the development of non-ferrous metallurgy, power engineering, viticulture, wine-making, etc. is undoubted. In contrast to them, Armenian settlers that had received all kinds of benefits from the czarist empire were very zealous to poison by any means the socio-economic and socio-political life of the aboriginal Azerbaijani Turks whose lands they owned.

**Гусейнова Севиндж Амирахмед гызы**

# Из истории участия переселенцев в социально-экономической и культурной жизни западного региона Северного Азербайджана в XIX– начале XX вв. (по материалам Гянджабасара, Гедабека, Аллахверди и Шамкира)

## РЕЗЮМЕ

В данной диссертации впервые в азербайджанской историографии всесторонне рассматриваются вопросы о социально-экономической, политической и культурной жизни северо-западных территорий Азербайджана XIX– начала XX века, в том числе Аллахвердинского региона немецких, русских, армянских и др. переселенцев, с привлечением большого количества архивных материалов, литературы, статистических данных, журнальных и газетных материалов и прочих источников, имевших непосредственное отношение к истории Азербайджана, до сих пор оставшихся вне поле зрения исследователей. Здесь подробно освещены различные аспекты и отрасли деятельности переселенцев.

В исследовании особо отмечается, что вопреки утверждениям советской историографии между переселенцами и местным населением шел процесс взаимообогащения. Хотя переселенцами были приведены в Азербайджан некоторые хозяйственные новшества, они воспользовались предоставленным им правительством льготой и создали лучшие развитые хозяйства, благодаря благоприятным условиям, тем не менее они полностью переняли опыт местных хозяйственников. Несмотря на это роль немецких и русских переселенцев в развитии некоторых отраслей азербайджанской экономики, особенно цветной металлургии, энергетики, виноградарства, виноделии и пр. несомненна. В отличие от них, получившие от царской империи всесторонние льготы армянские переселенцы, присвоив земли азербайджанских тюрков-аборигенов, особо отличались травлей социально-экономической, политической и культурной жизни азербайджанцев.

Əla növ kağız, formatı 60x84 – 1/16
Tirajı 100 nüsxə
TİKM-də çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГУСЕЙНОВА СЕВИНДЖ АМИРАХМЕД гызы**

# ИЗ ИСТОРИИ УЧАСТИЯ ПЕРЕСЕЛЕНЦЕВ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ И КУЛЬТУРНОЙ ЖИЗНИ ЗАПАДНОГО РЕГИОНА СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА в XIX– начале XX вв.

**(По материалам Гянджабасара, Гедабека, Аллахверди и Шамкира)**

Специальность: 5503.02 – «Отечественная история»

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

Баку – 2016